*“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 5 noyabr 2014-cü il | № 84 (1901) | Qiyməti 25 qəpik


## Rəsmi xronika

*✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyartonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Görüşdə Azərbaycan ilə Macarıstan arasında ikitərəfli münasibətlərin yüksək səviyyəsindən məmnunluq ifadə olundu, son vaxtlar bu münasibətlərin dinamik inkişaf etdiyi vurğulandı, əməkdaşlığımızın yaxşı perspektivlərinin olduğu qeyd edildi.*

*İkitərəfli əlaqələrimizin turizm, gənclər, informasiya-kommunikasiya texnologiyaları, əczaçılıq, hava nəqliyyatı və digər sahələrdə daha da genişləndirilməsi müzakirə olundu.*

*Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

* * *

*✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Fransa Milli Assambleyasının üzvü, Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jan-Fransua Manselin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı, yüksək səviyyədə keçirilən görüşlərin, o cümlədən Fransaya son səfəri zamanı Prezident Fransua Ollandla keçirdiyi görüşün əlaqələrimizin daha da möhkəmlənməsi baxımından önəmini qeyd etdi.*

*Dövlətimizin başçısı Fransada təsis olunmuş Azərbaycanın Dostları Assosiasiyasının fəaliyyətinin ölkələrimiz və xalqlarımız arasında əlaqələrin dərinləşməsi işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlər, parlamentlərarası əlaqələr, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

* * *

*✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Asiya İnkişaf Bankının prezidenti Takehiko Nakaonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq icra olunan layihələrin ölkəmizin iqtisadi inkişafı, o cümlədən müasir infrastrukturun yaradılması işinə töhfə verdiyini qeyd etdi.*

*Dövlətimizin başçısı Asiya İnkişaf Bankı ilə əməkdaşlığın bundan sonra da genişləndiriləcəyinə əminliyini bildirdi.*

**AzərTAc-ın materialları əsasında**

# Müdafiə Nazirliyinin rəhbərliyi Bakı qarnizonunun hərbi hissələrində olub



***Noyabrın 1-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Bakı qarnizonunun hərbi hissələrində olublar.***

Nazirliyin rəhbərliyi raket, tank və mexanikləşdirilmiş hərbi hissələrdə vəziyyətlə yerində tanış olub, onların döyüş hazırlığı, hərbi texnikanın döyüş imkanları, idarəetmə və qərargahlar tərəfindən tapşırıqların icrası, həmçinin hərbi qulluqçuların günün nizam qaydalarına uyğun fəaliyyəti və sosial-məişət şəraiti ilə maraqlanıblar.

Reaktiv artilleriya divizionundakı "Smerç" reaktiv yaylım atəş qurğularının döyüş hazırlığı vəziyyəti, onlara xidmət göstərən şəxsi heyətin ümumi hazırlığı və məşqlərdə iştirakı izlənilib.

Sonra mexanikləşdirilmiş hərbi hissədə hərbi texnikanın vəziyyəti yoxlanılıb, zirehli texnikaların heyət şəklində hazırlanması üçün komandir, sürücü, tuşlayıcı operatorların hazırlığı məqsədilə yaradılmış təlim-məşq trenajorları şəhərciyinə baxış keçirilib.

Zirehli texnikalar parkında hərbi döyüş texnikasına baxış keçirən nazir texnikalara qulluq göstərən hərbi qulluqçuların xidmətləri ilə maraqlanıb və xidmətin spesifik xüsusiyyətləri haqqında onlarla söhbət edib.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan səfirindən erməni həmkarına layiqli cavab

***Argentinanın "La Nacion" qəzetində Azərbaycanın bu ölkədəki səfiri Məmməd Əhmədzadənin Ermənistan səfirinin fikirlərinə növbəti cavab məktubu dərc edilib.***

Səfirlikdən AzərTAc-a bildiriblər ki, M.Əhmədzadə cavab məktubunda Dağlıq Qarabağın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisi olduğunu bildirib. Qeyd edilib ki, qondarma "Dağlıq Qarabağ respublikası" Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüzün ört-basdır edilməsi üçün qanunsuz olaraq yaradılıb və heç bir ölkə tərəfindən tanınmayan separatçı rejimdir. Yazıda diqqətə çatdırılıb ki, 1988-ci ildə Ermənistan SSR Azərbaycan SSR-ə qarşı əhalisi azərbaycanlılar və ermənilərdən ibarət olan Azərbaycanın Dağlıq Qarabağ əyaləti ilə bağlı ərazi iddiaları irəli sürüb, eyni zamanda, 250 min azərbaycanlını da Ermənistandan deportasiya edib. SSRİ-nin dağılmasından sonra isə Ermənistan Azərbaycana qarşı hərbi təcavüz həyata keçirərək Dağlıq Qarabağı və onun ətrafındakı 7 rayonu - ölkəmizin ərazilərinin 20 faizini işğal edib. Bu işğal nəticəsində həmin ərazilərdəki 750 min azərbaycanlı etnik təmizləməyə məruz qalaraq məcburi köçkünə çevrilib. İşğal prosesində Ermənistan beynəlxalq humanitar hüququ kobud şəkildə pozaraq dinc azərbaycanlı əhaliyə qarşı qətliamlar, Xocalı soyqırımını törədib.

M.Əhmədzadə bildirib ki, Ermənistan təcavüz faktını ört-basdır etmək üçün xalqların öz müqəddəratını təyin etməsi prinsipindən istifadəyə çalışır. Diplomat vurğulayıb ki, erməni xalqı Ermənistan dövləti yaratmaqla artıq öz müqəddəratını təyin edib və Azərbaycan ərazilərində ikinci erməni dövlətinin yaradılması qəbuledilməzdir. Bundan başqa, ermənilərin yaşamadığı ətraf rayonların işğalı və həmin ərazilərdən də bütün azərbaycanlıların qovulması onu göstərir ki, Ermənistanın xalqların öz müqəddəratını təyin etməsi prinsipinə istinad etməsi absurddur. Xalqların öz müqəddəratını təyin etməsi prinsipi Dağlıq Qarabağa azərbaycanlıların qaytarılmasını tələb edir. "Dağlıq Qarabağ xalqı" deyilən bir anlayış yoxdur. Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları deyilən anlayışlar var və azərbaycanlı icma da oradan qovulub. Ermənilərin Dağlıq Qarabağdan azərbaycanlıları qovaraq orada öz müqəddəratını təyinetmə tələbi yolverilməzdir.

Səfir, həmçinin bildirib ki, azərbaycanlılar Dağlıq Qarabağa qaytarıldıqdan sonra hər iki icma Azərbaycanın ərazi bütövlüyü çərçivəsində yüksək muxtariyyət, sülh şəraitində yaşaya bilər. Məsələnin yalnız bu cür həlli ədalətlidir və beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş çoxsaylı sənədlərə, beynəlxalq hüquqa, BMT Nizamnaməsinə və Helsinki Yekun Aktına uyğundur.

M.Əhmədzadə vurğulayıb ki, Azərbaycan BMT Nizamnaməsində, xüsusilə də onun 51-ci maddəsində təsbit olunmuş hüquqlara xələl gətirmədən münaqişənin sülh yolu ilə həllinə tərəfdardır, bu xüsusda 20 ildən artıqdır hələ də heç bir nəticə verməyən danışıqlar prosesində iştirak edir. "Münaqişənin nizamlanmasına ən böyük əngəl Azərbaycan ərazilərində Ermənistanın silahlı qüvvələrinin qalmasıdır. Bu qüvvələrin işğal olunmuş ərazilərdən çıxarılması və azərbaycanlı məcburi köçkünlərin öz torpaqlarına qaytarılması münaqişənin nizamlanmasının açar elementləridir. XXI əsrdə dünya ictimaiyyəti hərbi güc tətbiq etməklə beynəlxalq səviyyədə tanınmış sərhədlərin dəyişdirilməsini qəbul etmir", - deyə diplomat fikirlərini tamamlayıb.

# Qoyun dərisinə girmiş topal Seyran

***Ermənistanın Müdafiə naziri Seyran Ohanyan Dağlıq Qarabağ münaqişəsinin tərəfləri arasında inam atmosferinin yaradılması ilə bağlı növbəti populist bəyanat verib.***

Erməni nazirə cavab olaraq Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov deyib: "Bu, yalnız Ermənistan silahlı qüvvələri tərəfindən zəbt edilmiş torpaqlarımızdan işğalçılar tamamilə və qeyd-şərtsiz çıxarıldığı halda baş tuta bilər".

Tamamilə doğrudur. İşğalçılıq şəraitində etimad ola bilməz. Ermənilər özlərini bu fikrə hazırlamalıdırlar ki, onların silahlı birləşmələrinə nə vaxtsa Qarabağı birdəfəlik tərk etmək lazım gələcək və onlar maksimum nəyə ümid bağlaya bilərlər - bu, Azərbaycan Respublikasının tərkibində və onun yurisdiksiyası altında ikiicmalı muxtariyyət şəraitində yaşamaqdır. Sülh yalnız bu şərtlərlə mümkündür, hazırkı status-kvo isə müvəqqətidir. Ermənistan bu qaçılmazlığa könüllü tabe olarsa, buna qan tökmədən nail olmaq mümkündür.

Buna həm də güc əməliyyatı nəticəsində nail olmaq mümkündür. Lakin onda ermənilər bu gün onlara təklif olunanı artıq ala bilməyəcəklər və onlar Ermənistan azərbaycanlılarının 1988-1989-cu illərdə zorakı deportasiya nəticəsində tərk etdikləri evlərdə və kəndlərdə yaşamağa başlamaq məcburiyyətində qalacaqlar. Necə deyərlər, Azərbaycan hərbçiləri ona görə qan tökməyəcəklər ki, sonda düşmənə ərazilərin azad olunması əməliyyatından əvvəlki təklifi bir də etsinlər.

Topal Seyranın populist bəyanatına qayıdaraq qeyd etmək lazımdır ki, snayperlər deyil, ordular geri çəkilməlidir. Həm də qüvvələrin təmas xəttinin arxasına yox, Ermənistan və Azərbaycan arasında beynəlxalq səviyyədə tanınan dövlət sərhədlərinin arxasına. O vaxtadək ki, bu, baş verməyib, beynəlxalq hüquq terminologiyasında "təcavüz nəticəsində işğal" adlanan situasiya saxlanacaq. Belə situasiyada snayperlər də, diversiya fəaliyyətləri də, hətta düşməni öz sərhədlərinə geri çəkilməyə məcbur etmək məqsədi ilə onun mövqelərinə artilleriya zərbələri də lazımdır. İşğalın davam etməsi şəraitində etimad tədbirlərinin möhkəmləndirilməsi haqqında danışıqlar tamamilə absurddur.

"Xalq diplomatiyası" adını almış bütün addımlar necə absurd, zərərli və hətta cinayətkardır, çünki onların məqsədi işğalı uzatmaq və milyonlarla insanın qaçqın statusunda olmasıdır. Buna görə də bu qondarma "xalq (əslində antixalq) diplomatiyası"nın muzdlu bələdçiləri cəmiyyətdən təcrid olunmalı və məğlubiyyətçilik təbliğatı və "tənzimlənmədən barışıq" düsturu vasitəsilə cəmiyyətin beynini xarab etmək imkanından məhrum edilməlidirlər.

**AzərTAc**

# Müdafiə Nazirliyinin rəhbərliyi Bakı qarnizonunun hərbi hissələrində olub







(Əvvəli 1-ci səhifədə)

Xidmətə yenicə başlayan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində hərbi hissələrdə işlə və yüksək əməkhaqqı ilə təmin olunduqlarına görə minnətdarlıqlarını bildiriblər.

Bundan sonra Müdafiə Nazirliyinin rəhbərliyi Ali Baş Komandanın tapşırığına əsasən, yeni salınan hərbi şəhərciyin perspektiv tikinti-quruculuq planı ilə tanış olub və işlərin gedişatını yoxlayıblar.

Qərargah, əsgər yataqxanaları, tədris kompleksləri, döyüş texnikası üçün saxlanclar, qarovul şəhərciyi, avtopark, sıra meydanı, yeməkxana, əsgər klubu, tibb məntəqəsi, idman meydançası, qazanxana-camaşırxana-hamamxana kompleksi, transformator yarımstansiyası və tikinti gedən digər obyektlərdə olan Müdafiə naziri görülən işlərlə maraqlanıb, müvafiq tapşırıq və tövsiyələrini verib.

İnşa edilən yeni tipli hərbi şəhərcikdə zəruri hərbi infrastrukturlarla yanaşı, müasir tələblərə cavab verən, bütün məişət şəraiti ilə təmin edilmiş, həmçinin ailəli hərbi qulluqçuların ehtiyacları da nəzərə alınmaqla geniş mənzillər, eləcə də gizirlər üçün yataqxana kompleksi də tikilir.

Görülən işlərin 2015-ci ilin yay ayları ərzində başa çatdırılması planlaşdırılır.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**fotolar Vüsal HƏMİDOVUNDUR**

# Müdafiə naziri Bolqarıstan Respublikasının ölkəmizdəki səfirini qəbul edib

***Noyabrın 4-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Bolqarıstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Maya Hristovanı qəbul edib.***



Müdafiə naziri səfirə regiondakı hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verib.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Fransa və Türkiyə prezidentlərinin görüşündə Dağlıq Qarabağ münaqişəsi də müzakirə edilib

***Fransada səfərdə olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 31-də Prezident Fransua Olland ilə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsini də müzakirə ediblər.***

Görüşdən sonra keçirilən birgə mətbuat konfransında Fransua Olland deyib ki, müzakirələr zamanı Fransa ilə Türkiyə arasında siyasi, iqtisadi, nəqliyyat, ticarət, mədəniyyət, müdafiə, beynəlxalq təhlükəsizlik və digər sahələrdə əməkdaşlıq məsələləri diqqət mərkəzində olub. İraqda və Suriyada yaranmış vəziyyət də müzakirə edilib.

Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə toxunan Fransua Olland oktyabrın 27-də Azərbaycan və Ermənistan prezidentləri ilə apardıqları danışıqları müsbət dəyərləndirib.

Prezident Rəcəb Tayyib Ərdoğan Fransa ilə müxtəlif sahələrdə əməkdaşlığı yüksək qiymətləndirib, Türkiyədə çoxlu sayda fransız şirkətinin fəaliyyət göstərdiyini bildirib.

Son vaxtlar Kobani ətrafında yaranan vəziyyətdən bəhs edən Rəcəb Tayyib Ərdoğan sərhəddə yerləşən bu şəhərdə baş verən hadisələrin ölkəsi tərəfindən diqqətlə izləndiyini söyləyib.

**AzərTAc**

# Müdafiə naziri Hərb Oyunları Mərkəzində olub





***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Müdafiə Nazirliyinin Hərb Oyunları Mərkəzində olub.***

Müdafiə Nazirliyinin rəhbərliyi, Silahlı Qüvvələrin növləri və qoşun qismləri komandanları, birlik komandirləri və qərargah rəislərinin iştirakı ilə keçirilən tədbirdə mərkəzin vəzifələri və məqsədi barədə brifinq təqdim olunub.

Bildirilib ki, mərkəzin əsas məqsədi strateji, əməliyyat-strateji və taktiki səviyyələrdə, həmçinin bölük və taqım komandirləri də daxil olmaqla dünyanın ən qabaqcıl ordularında tətbiq olunan yeni texnologiyalar əsasında müasir döyüş və manevr imkanları, relyef və iqlim şəraiti nəzərə alınmaqla keyfiyyət və kəmiyyət baxımından qərarların qəbul edilməsi və dəqiqləşdirilməsi məsələlərinin öyrənilməsi üzrə zabitlərin hazırlanmasıdır.



Müdafiə Nazirliyinin rəhbərliyi mərkəzin əməliyyat və təhlil, komandanlıq və idarəetmə sisteminin trenajorları, birləşmiş münaqişə və taktiki simulyasiya, o cümlədən yardımçı bölmələri ilə tanış olaraq mərkəzin fəaliyyəti ilə maraqlanıb.

Sonda Müdafiə naziri Silahlı Qüvvələrdə komanda-qərargah məşqləri və təlimlərin keçirilməsi, birlik və birləşmə səviyyəsində zabitlərin bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə müasir və yüksək texnologiyalı kompüter proqramlarının tətbiqi, təlimlərin sayının artırılması, həmçinin təlimlərdə bütün döyüş hesabatlarının simulyasiya sistemi vasitəsilə yoxlanılması barədə müvafiq göstəriş və tapşırıqlarını verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrdə "NATO günləri" başlayıb

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən, noyabrın 3-dən Bakı şəhərində NATO-nun Müttəfiq Transformasiya Komandanlığının ekspert qrupu tərəfindən Silahlı Qüvvələrdə "NATO günləri" tədbiri keçirilir.

NATO-nun Hərbi Tərəfdaşlıq İdarəsinin rəisi general-leytenant Ali Çetinkayanın (Türkiyə Respublikası) rəhbərlik etdiyi nümayəndə heyəti Silahlı Qüvvələrin Hərbi Akademiyası, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə gedərək hərbi təhsil müəssisələrinin fəaliyyəti ilə tanış olacaq, brifinqlər verəcək və müzakirələr aparacaq.

Silahlı Qüvvələrdə "NATO günləri" noyabrın 7-də başa çatacaq.

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Noyabrın 3-dən 7-dək Oberammerqau şəhərində (Almaniya) "Bütövlüyün qurulmasında müdafiə təsisatlarının liderliyi" mövzusunda kurs, NATO İctimai əlaqələr siyasətinin hazırlanması kursu, Budapeşt şəhərində (Macarıstan) "Tibbi qiymətləndirmə" kursu, Ankara şəhərində (Türkiyə) Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi ilə Türkiyə Quru Qoşunları Hərbi Məktəbi arasında müəllim mübadiləsi, Bakı şəhərində "NATO günləri" tədbiri; noyabrın 3-dən 14-dək Konstanta şəhərində (Rumıniya) Hidroqrafiya və hidroqrafiya idarələri üzrə regional təlim kursu, San-Remo şəhərində (İtaliya) 156-cı beynəlxalq hərbi kursu; noyabrın 3-dən 21-dək isə Ankara şəhərində (Türkiyə) Exokardioqrafiya kursu keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

## Təmas xəttində monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, noyabrın 5-də Tərtər rayonunun Seysulan kəndi yaxınlığındakı qoşunların təmas xəttində monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle və Saymon Tiller keçirəcəklər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov və Yevgeni Şarov keçirəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***2 noyabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 54 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Ağdam rayonunun Şuraabad, Şıxlar, Novruzlu, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***4 noyabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 15 dəfə pozulub.

Ağdam rayonunun Mərzili, Yusifcanlı, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Goranboy, Füzuli və Xocavənd rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

*Ön xətdən reportaj*

# Hər postumuz alınmaz bir qaladır



***Zabit Seymur Abıyevlə döyüş postuna çatanda hava qəfil dəyişdi, güclü külək qalxdı və ətraf toza qərq oldu. Havanın qəflətən sərtləşməsinə baxmayaraq, döyüşçülər xidmətlərini davam etdirirdilər. Döyüş postunda müşahidə aparan əsgərlər yaxşı bilirlər ki, hava kəskin dəyişiləndə, daha diqqətli olmaq lazımdır. Beləliklə, biz səngərdə əlaqə yolla xeyli gəldikdən sonra daha bir posta çatdıq. Burada zabit Seymur Şahquliyev bizi qarşıladı. Müşahidə haqqında qısa məlumat verdi. Bölmə komandiri qeyd etdi ki, düşmənlə təmas xəttində ara məsafə çox yaxın olduğundan onlar ayıq-sayıqlıqlarını bir an belə itirmirlər.***

Zabit S.Şahquliyev beşinci ildir ki, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Zabit kimi xidmətə başladığı qısa müddətdə Seymur kursant illərində yiyələndiyi hərbi biliklərdən və təcrübədən yararlanaraq komandanlığın rəğbətini qazanıb. Beləliklə, o, bölük komandiri vəzifəsinə təyin olunur. Onun komandiri olduğu bölmə indi cəbhə bölgəsində yerləşir. Bacarıqlı zabit döyüş növbətçiliyinin təşkilində heç bir çətinlik çəkmir. Ötən il Silahlı Qüvvələrin yaranmasının "95 illik yubiley medalı" ilə təltif olunması da Seymurun nümunəvi xidmətinə verilən yüksək qiymət olub.

Hələ hərbi hissənin qərargahında olanda zabit E.Əhmədov Seymurun bacarıqlı və işgüzar zabit olduğunu bildirmişdi. İndi də onun komandiri olduğu bölmənin dayaq məntəqəsindəyəm. Burada döyüş növbətçiliyi tələblərə uyğun təşkil edilib.

Postda ilk görüşdüyüm döyüşçülərdən biri gizir Azər Musayevdir. Azər iki ildən artıqdır burada xidmət edir. Əraziyə yaxından bələd olan gizir deyir ki, düşmənlə təmas xəttində xidmət etməyin məsuliyyətini hər bir əsgərin diqqətinə çatdırıb. Müşahidə zamanı əsgərlər həmin əraziləri nəzarətdə saxlayır və düşmən təxribatının qarşısını vaxtında almağa çalışırlar.

Əsgər Orxan Fətəliyev müddətdən artıq xidmət edən hərbi qulluqçudur. Onun hərbi xidmətə başlamasının hələ bir ili tamam olmayıb. Ancaq Orxan manqa komandiri kimi özünü qısa müddətdə doğrulda bilib. Çünki təlim kursunda əldə etdiyi hərbi bilikləri və döyüş təcrübəsini yetərincə mənimsəyib. Onun bacarığı və işgüzarlığı daha nümunəvi xidmət etməsinə zəmin yaradır. Bölük komandiri də bu döyüşçünün xidmətindən razı qaldığını bildirdi.



Orxanla birlikdə döyüş postunda daim ayıq-sayıq xidmət aparan əsgərlərdən Tofiq Yarəhmədov, Taleh Sətyarov, İsmayıl İbrahimov, Murad Şeydayev, Kamil Əliyev və Tural Rzayevlə görüşdüm. Onlar səngərdə mürəkkəb şəraitdə xidmət aparmalarına baxmayaraq, təmizliyə, səliqə-sahmana da ciddi fikir verirlər. Burada, bildiyimiz kimi, yağışlı, qarlı havada hərəkət etmək çətin olur. Əsgərlər hər bir çətinliyi öncədən duyur və buna qarşı gərəkli addımlar atırlar.

Əsgərin sağlamlığı vacib amildir. Yüksək döyüş növbətçiliyinin təşkili üçün şəxsi heyətin mövsümə uyğun geyimlə təmin olunmalarının başlıca məqsəd olduğunu deyən zabit E.Əhmədov tez-tez postlarla əlaqə saxladığını və əsgərlərin ehtiyaclarını vaxtlı-vaxtında ödədiklərini bildirmişdi. Budur, ən ucqar postlardan birində yaradılan şərait komandirin dediklərini təsdiq edir. Əsgərlər həm təminatdan, həm də yüksək döyüş və mənəvi hazırlığından ruhlanaraq düşmənlə üz-üzə xidmət edirlər. Onlar bu soyuq səngərlərdə bir an belə düşməni gözdən qoymurlar.



Dəfələrlə günün müxtəlif vaxtlarında düşmənin mövqelərimizə etdiyi hücüm cəhdlərinin qarşısı qətiyyətlə alınıb. Erməni vandalları da yaxşı bilirlər ki, artıq Azərbaycan əsgərinin üzərinə getmək nə ilə nəticələnəcək. Çünki dəfələrlə quldurlar layiq olduqları cavabı alıb və bundan sonra da alacaqlar.

**Mayor
Bəxtiyar ƏLİYEV,
"Azərbaycan Ordusu"**

# "Ordu sıralarında keçirdiyim hər gün Vətənim, xalqım qarşısında sınaq günümdür"

***Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsinə ezam edilmişəm. Buraya gəlişim qeyri-sabit hava şəraitinə təsadüf edib. Havaların qəfildən dəyişməsi ön xətdə - torpaqlarımızın keşiyində dayanan cəsur müdafiəçilərimizin ovqatına təsir etmir. Ürəyində Vətən sevgisi olan döyüşçülərimiz yaxşı bilirlər ki, bu yerlərdə sakinlərin əmin-amanlıqda yaşamalarının əsas təminatçısı onlardır. Axı xalqımız ordumuzun hərbi qüdrətinə inanır, əsgərlərimizin yüksək döyüş əzminə güvənirlər.***

- Şəxsi heyət mütəmadi təlimlərdədir, - deyə zabit Etibar Orucov bildirir. - Biz çalışırıq ki, şəxsi heyətin heç nədən korluğu olmasın. Hazırda ordu rəhbərliyi də müntəzəm olaraq cəbhə bölgələrinə gəlir, ön xətdəki hərbi bölmələrin qayğıları, sosial-məişət şəraiti ilə yaxından maraqlanır. Əvvəlki illərlə müqayisədə əsgərlərimizin ərzaq-əşya təminatı xeyli yaxşılaşıb. Belə təminat isə şəxsi heyətin əhval-ruhiyyəsində özünü daha qabarıq büruzə verir. Gənc döyüşçülərimiz yaxşı başa düşürlər ki, dövlət və ordu rəhbərlikləri daim onları düşünür.

Azərbaycan Ordusunun təcrübəli zabitinə görə, bu gün ordu sıralarına çağırılan gənclərin Vətənə sədaqət və milli-mənəvi dəyərlərimiz ruhunda tərbiyə olunmasında təkcə dövlət strukturlarının deyil, bütövlükdə cəmiyyətin də üzərinə məsuliyyət düşür. "Ölkəmizin müharibə şəraitində olduğu bir dövrdə cəmiyyətin bütün təbəqələri - valideynlər, ağsaqqal və ziyalılar gənc nəslin vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirməlidirlər. Unutmaq olmaz ki, bugünkü gənc nəslə sabah Vətənimizin müdafiəsi və torpaqlarımızın işğaldan azad edilməsi kimi mühüm vəzifə etibar olunacaq".



Topçuların yanındayıq. Batareya komandiri baş leytenant Afiq Ağayev bizi əsgər yataqxanası və gənc əsgərlərlə tanış edir. Hər bir şəraitlə təmin olunan əsgər yataqxanası ilə tanış olduqdan sonra gənc əsgərlərə dərs keçirilən təlim meydanına yollanırıq. Çavuş Vaqif Xanışlı bizi nizamnamə çərçivəsində qarşılayaraq batareya komandirinə şəxsi heyətin dərs üçün hazır olmasını bildirir. Məşğələnin gedişində əsgərlərin döyüş topunun taktiki-texniki xüsusiyyətləri və istifadəsi barədə yetərincə məlumatlı olduqlarını hiss edirəm.

İlk ünsiyyətdən cəsur əsgərlərimizin yüksək mənəvi-psixoloji ovqatda olmaları hiss edilir. Baş leytenant Afiq Ağayevə görə, son vaxtlar orduda əsl keyfiyyət yenilikləri baş verir. "Hansı mərhələdəsə üzləşdiyimiz çətinliklər geridə qalıb. Komandanlıq tərəfindən ön cəbhəyə böyük diqqət və qayğı göstərilir. Əsgərlər mənəvi-psixoloji və döyüş hazırlığı baxımından fəaldırlar. İndi onların hər biri yüksək mənəvi dəyərlərimizə - xalqımıza və dövlətçiliyimizə sədaqətlə xidmət edirlər. Biz də döyüş hazırlığı planına uyğun olaraq müxtəlif dərslər keçirik, vaxtaşırı təlim məntəqələrində əsgərlərimizin hərbi biliklərə alışmalarına ciddi önəm veririk. Burada yaradılan yüksək şərait bizi hər zaman düşmən üzərində qələbəyə ruhlandırır".

Batareya komandiri cəbhə bölgəsində xidmət etməyin əsgər və zabitlər üçün şərəf olduğunu deyir:

- Məhz burada hər bir hərbçi Vətən üçün, xalq üçün nə qədər lazım olduğunu dərk edir, üzərinə düşən vəzifələri məsuliyyətlə icra edir və düşmənin layiqli cavabını verir. Çox təəssüf ki, bəzən ordunun nüfuzuna xələl gətirən söhbətləri eşidirik. Belə yanlış fikirlər bizdə ikrah hissi doğurur. Əksinə, cəmiyyətdəki qulluq mövqeyindən asılı olmayaraq, hər kəs öz ordusu ilə fəxr etməli, öyünməlidir və cəbhə bölgəsində xidmət edən gənc döyüşçülərimizlə qürur hissi keçirməlidir.

Xeyli müddətdir ki, cəbhə xəttində uğurlu xidmətini həyata keçirən çavuş Vaqif Xanışlı söhbətimizdə deyir:

- Mən arzu edərdim ki, cəmiyyətimizdə nüfuzu və hörməti olan ziyalılar, sənət adamları, mədəniyyət xadimləri tez-tez cəbhə bölgələrində gənc döyüşçüləri ziyarət etsinlər. Belə görüşlər əsgərlərimizə xoş əhval-ruhiyyə aşılamaqla yanaşı, onların döyüş ruhunu daha da artırır. Yeri gəlmişkən, bildirim ki, bu gün ölkəmizdə hərbi vətənpərvərlik təbliğatı yetərli səviyyədə deyil. Yaxşı olardı ki, Silahlı Qüvvələrimizdə qazanılan uğurlar, əsgərlərimizin yüksək döyüş qabiliyyəti cəmiyyətimizdə yetərincə təbliğ edilsin. Biz düşməndən qətiyyən çəkinmirik, qorxmuruq. Ali Baş Komandanın döyüş əmrini yerinə yetirməyə və müharibə meydanında Azərbaycanın qələbəsini təmin etməyə tam hazırıq.

Gənc əsgərlərdən Balakən rayonundan hərbi xidmətə çağırılmış Nicat Mikayılov söhbətimizə qoşulur:

- Burada hər birimizin normal xidmət etməsi üçün hər cür şərait yaradılıb. Xidmətə yeni başlamağımıza baxmayaraq, hər birimiz dərslərdə fəal iştirak edir, komandirlərin öyrətdiklərini dərindən mənimsəməyə çalışırıq.

Biz cəbhə bölgələrində ezamiyyətdə olarkən hər dəfə hiss edirik ki, həqiqi xidmət keçən əsgərlərin çevikliyi, mənəvi-psixoloji, fiziki hazırlığı yüksək səviyyədədir. Gənclərimiz düşmənlə təmas xəttində xidmət etməyin məsuliyyətini dərk edir və hər an düşmənin həmləsini dəf etməyə hazırdılar.

Gənc döyüşçü Tural Həsənov isə orduya Ağdaş rayonundan çağırılıb. Tural hesab edir ki, qısa müddətdə yetərli döyüş təcrübəsi qazanıb, silahlardan düzgün istifadə etməyi öyrənib. "Xidmət müddətində ordu ilə bağlı fikirlərim xeyli dəyişib. Buradakı maddi-texniki təminat, yaradılmış şərait məndə ruh yüksəkliyi yaradıb və döyüş əzmimi daha da artırıb".

Elşən Qədirovla da söhbət edirəm. Hərbi xidmətə Yevlax rayonundan çağırılıb. Əsgər yoldaşlarının bütün fikirlərinə şərik olduğunu bildirir.

**- Elşən, bəlkə qəzetimiz vasitəsilə dostlarına, doğmalarına deyiləsi başqa ürək sözün var?**

- Evdəkilərə, dostlarıma, ümumiyyətlə, övladları ön cəbhədə xidmət edən bütün valideynlərə demək istərdim ki, ərzaq təminatı, geyim, silah-sursatla bağlı heç bir problemimiz yoxdur. Gündəlik tələbatımız tam ödənilir. Xidmətimiz də normal qaydada keçir. İnşallah, torpaqlarımızı işğaldan azad edəcəyimiz gün uzaqda deyil.

Yevlax rayonundan olan əsgər Fəhmi Kamilli də deyir ki, ordu sıralarında keçirdiyi hər gün onun Vətəni, xalqı qarşısında sınaq günüdür. "Biz burada kişilik məktəbi keçirik və əsl azərbaycanlı döyüşçüsünün nümunəsini yaradırıq. Bilirik ki, bu gün Ali Baş Komandanımız da, millətimiz də bizə güvənir. Biz isə hər an bu etimadı canımız, qanımız bahasına doğrultmağa hazırıq".

Asudə vaxtlarında əsgərlərin istirahət qayğıları ilə maraqlanırıq. Öyrənirik ki, bu məqsədlə əlverişli şərait yaradılıb. Əsgərlər üçün nəzərdə tutulan istirahət guşəsi abadlığı ilə seçilir. Burada gənc döyüşçülər televizora baxır, qəzet və jurnalları nəzərdən keçirirlər.

Gənc əsgərlərlə görüşümüz başa çatsa da, xoş xatirələr yaddaşımdan silinməyəcək. Nicatı, Turalı, Elşəni və onların timsalında hər bir əsgəri daim xatırlayacaq, Vətənin keşiyində dayanan döyüşçülərlə fəxr edəcəyəm...

**Leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Rusiyadan ABŞ-la münasibətlərin "yenilənməsinə" çağırış



Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov bazar günü Rusiyanın özünütəcrid vəziyyətinə keçmək istəmədiyini bildirərək, ABŞ-la münasibətlərin "yenilənməsinə" çağırış edib. Lavrov bu münasibətlərin pozulmasının təşəbbüskarı olmadıqlarını bildirib:

"Biz bu münasibətlərin normallaşdırılmasında maraqlıyıq və həmin münasibətlərin pozulmasının təşəbbüskarı olmamışıq. Ola bilsin ki indi bu münasibətlərin "yenilənməsinə" ehtiyac yaranıb", - deyə Sergey Lavrov Rusiya televiziyasına müsahibəsində bildirib.

Rusiya XİN başçısının sözlərinə görə, Moskva ABŞ-la münasibətlərdə bu cür vəziyyətin "qeyri-müəyyən vaxtadək uzanmasında maraqlı deyil".

Eyni zamanda, Sergey Lavrov Rusiyada nüvə silahı da daxil olmaqla silah arsenallarının təzələnməsi vaxtının yetişdiyini qeyd edib.

## Kürdlərin İŞİD-ə ilk hücumu



İraqdan gəlmiş kürd peşmərgə gücləri Kobaniyə girdikdən sonra İŞİD mövqelərinə "Katyuşa" mərmiləri ilə atəş açıblar. ANS PRESS-in məlumatına görə, İŞİD bu atəşə cavab verməyib.

İki gün Türkiyənin Urfa vilayətinin Suruç bölgəsində gözlədikdən sonra Kobaniyə girən İraq peşmərgələri şəhərin qərbindəki bir binanı özlərinə qərargah kimi seçiblər. Peşmərgələr cəbhədəki səssizliyi axşam saat 17.00 radələrində pozub və İŞİD mövqelərinə altı “Katyuşa” mərmisi atıblar.

Peşmərgələr İraq Kürdüstanının regional rəhbərliyi tərəfindən Kobaninin İŞİD-dən müdafiəsi üçün göndərilib.

## 6 Ukrayna əsgəri öldürülüb



Ukraynanın şərqində ordu qüvvələri ilə separatçılar arasında baş verən atışmada 6 əsgər öldürülüb. Atışma zamanı daha 10 əsgər yaralanıb.

Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasından verilən açıqlamada bildirilir ki, tərəflər arasında atəşkəs elan edilməsinə baxmayaraq, separatçılar son 24 saatda 37 dəfə atəşkəsi pozub.

Separatçıların Qranitnoe, Nikolayevka, Starognatovka, Pavlopol, Slavyanoserbsk, Novoaydarovsk və Popastnaya qəsəbələrinə silahlı hücumlar təşkil etdiyi bildirilir. Həmçinin, Donetsk hava limanı ilə Luqansk və Donetsk arasındakı dəmiryolu və quru yolu üstündə yerləşən strateji əhəmiyyət daşıyan mövqelər də hücuma məruz qalıb.

Ukrayna tərəfi separatçıların hücumlarına baxmayaraq, Donetsk hava limanı ilə Debaltsevo qəsəbəsinə nəzarətin ordu qüvvələrində olduğunu bəyan edib.

## Dünyanın ən uzun tuneli



2016-cı ilin iyun ayında istifadəyə verilməsi planlaşdırılan İsveçrədəki Qotard tunelində işlər başa çatmaq üzrədir. Euronews telekanalı xəbər verir ki, uzunluğu 57 kilometr olan bu tunel dünyanın ən uzun tunelidir. Hazırda tunelin divarlarının möhkəmləndirilməsi və kommunikasiya xətlərinin qurulması istiqamətində işlər gedir.

Qotard tunelində sərnişin qatarları saatda 250 kilometr sürətlə hərəkət edə biləcək.

## Türkiyə Silahlı Qüvvələri yeni "F-35" döyüş təyyarələri ilə təmin olunacaq



Nyu-Yorkda yeni hazırlanmış "F-35" (II Şimşək) hərbi döyüş təyyarəsinin təqdimatı keçirilib. Türkiyə mətbuatının məlumatına görə, yeni hərbi təyyarənin ehtiyat hissələrindən altısı bu ölkədə hazırlanır.

Bildirilir ki, Türkiyə tərəfi bu təyyarələrdən 100 ədəd sifariş verib. Yeni "F-35"-lər 2018-ci ildə Türkiyə Silahlı Qüvvələrinə təhvil veriləcək.

## Rusiya Mərkəzi Bankı rublun ucuzlaşmasının qarşısını ala bilmir



Rusiya Mərkəzi Bankının (MB) cəhdlərinə baxmayaraq, rubl ucuzlaşmaqda davam edir. MB ölkə valyutasının məzənnəsini tənzimləmək məqsədilə oktyabrın 1-dən 15-dək 11 milyard dollar, ilin əvvəlindən indiyədək isə 50 milyard dollar xərclədiyini bildirib.

Euronews telekanalı xəbər verir ki, neftin qiymətinin dövlət büdcəsində planlaşdırılan həddən aşağı düşməsi, Ukrayna böhranı və Rusiyaya qarşı tətbiq edilən iqtisadi sanksiyalar fonunda rubl yanvardan bəri 25 faiz ucuzlaşıb. Dolların məzənnəsi ilk dəfə olaraq 41 rublu, avronun məzənnəsi isə 52 rublu keçib.

**Hazırladı:
Ə.MƏHƏRRƏMOĞLU**

# “Bu bayramın işığına milyonlar şərik...”

## Şəmkir şəhərində “Əsgər Şöhrəti bayramı” keçirilib



Təbiətdə payızdı, ürəklərdə yaz. Əsən yellərdə, yarpaq-yarpaq titrəşən budaqlar da bayram ovqatına bürünüb. “Əsgər Şöhrəti bayramı”na...

Əsgərlik yaşını haqlamış yeniyetmələrin də, əsgərlikdən qayıtmış cavanların da, uşaqların da, ahılların-qocaların da baxışlarında yerə-göyə meydan oxuyan bir fərəh, qürur çırpınmaqdadı...

Şəhid analarının “bir gözü ağlayır, bir gözü gülür...”...

Şəmkir Olimpiya kompleksinin qarşısı belə bir ovqatın beşiyidi. Bu qədərsiz ovqat Azərbaycan əsgərinə ad olub! Toplaşanların, tədbirdən uzaqlarda ürəyi tədbirlə döyünənlərin, könlü bu həndəvərlərə havalananların qüruru bir qədər aralıda göy üzünün göylüyünə sığal çəkən bayrağımızla qoşa dalğalanır. Şəmkir qalasının, Divan bürcünün, Qız qalasının daş əlləri də havalanmağa meyillidi. Şəhidlər abidə-kompleksindən alov götürən əsgərlərin yerişinə göz qoyublar elə bil. Bu alov sıradan bir alov deyil. Bu alov duyanlara Vətən sevgisinin alov biçimli görüntüsüdü...

Tədbir iştirakçıları ümummilli liderimiz Heydər Əliyevin abidəsini ziyarət edir...

Misra-misra mətləb “toxuyan” aparıcıların səsində titrəyən incə həyəcan duyanlar üçün milli-xəlqi heysiyyətin fonunda zəifləyir, təəssübkeşliyin təntənəsinə dönür. Misralar duyanlar üçün ssenari müəllifinin bədii təxəyyülünün nəhayətsizliyinin təsdiqidir. “Əsgər Şöhrəti bayramı” yolumuzu gözləyən qələbənin uvertürası olaydı kaş; müharibə hələ başa çatmayıb, müharibə torpaqlarımız azad ediləndə başa çatacaq. Həmin günün “yelinə uçanlar” üçün...

Tədbirin ssenari müəllifi və rejissoru, əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbaninin çıxışı tədbirin leytmotivi təsirindədi. O, yeni yaşam qazanan bayramın mahiyyətini açıqlayır, mənəvi dəyərlərimizin davamı olacağını bildirir, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrimizin döyüş və mənəvi-psixoloji hazırlığının daha da gücləndirilməsi istiqamətində gördüyü işlərdən söz açır. Zabit kimi, şair kimi, vətəndaş kimi...

Müharibə veteranları, xidmətdə fərqlənən hərbi qulluqçular, xüsusi təyinatlı təhsil müəssisələrinin əslən Şəmkirdən olan kursantları gənc “Cəsurlar”ın və “Şahinlər”in bayraqları ilə izdihamın qarşısından keçir. Bu keçid bayramın tərkib hissəsi kimi bir mətləbin izahına, bir mətləbin təsdiqinə xidmət edir: Varıq, var olacağıq!

Cümhuriyyət dövrü əsgərlərinin hərbi mundirində keçən əsgərlərin yerişi nostalji duyğulara yeni bir yaşam verir...

Azərbaycan Akademik Milli Dram Teatrının, Gəncə Dövlət Dram Teatrının, Silahlı Qüvvələrin Mahnı və Rəqs ansamblının və Gəncə Qarnizonu Zabitlər Evinin bədii kollektivlərinin iştirakı ilə teatrlaşdırılmış kütləvi mərasim toplaşanlara könül xoşluğu verəcəkdi. Axı əsgərə, əsgər şöhrətinə ad olan, hər birimizə bu adla qürurlanmağın mənəvi dəyərlərdən olduğunu bir daha xatırladan bu tədbir yeni bir bayramı - “Əsgər Şöhrəti bayramı”nı bu gün tarixləşdirir. Abdulla Qurbaninin ssenarisi əsasında, Abdulla Qurbaninin bədii yozumunda. Minlərin sevgisinin əhatəsində.

...Meydan ləngərlənir. Yüz illərin o üzündən Dədəm Qorqud gəlir meydana. Qolça qopuzun simlərinin titrəyişini duymaq çətin deyil. Həminki ağırtaxta yeriş, həminki Dədə yerişi, həminki aqil yerişi sanki dil açasıdı:

- Şırıl-şırıl qayalardan sızan suca ömrünüz olsun. Dağ vüqarlı igidlərə dayaq olan dağlardan uca ömrünüz olsun, şərəfli əsgər adı daşıyan, Vətən uğrunda son damla qanına kimi vuruşmağa hazır olan balalarım!

Dədəm Qorqud “soy soylayır”. Kəlmə-kəlmə toplaşanların düşüncələrinin qırışığını açır. Dədə öyüdünə biət gətirməmək mümkünmü?..

- O vaxtlar Qaraca Çobana demişdim, indi sizə deyirəm: Torpağı qorumadınsa, əkib-becərməyə dəyməz. Torpağımızı əkib-becərin də, qoruyun da. Zamanında Məmməd Araz balam necə demişdi?

*Azərbaycan deyiləndə ayağa dur ki,*
*Ana yurdun ürəyinə toxuna bilər.*

### (reportaj)

Yüz illərdi bu adın işığındayıq. Tanrı bu işığı bizlərə çox görməsin! Dinşəsəniz işğal altında qalan torpaqlarımızın harayını eşidərsiniz. Tanrımıza and olsun ki, Qolça qopuzuma and olsun ki, Vətəndən müqəddəs heç nə yoxdu. Sevin Vətəni, qoruyun Vətəni. Beyrəkləşin, Qazan xanlaşın, Qaraca Çobanlaşın. Kölgəliyinə el sığası ağaclarınız kəsilməsin! Axar sularınız qurumasın!..

Dədəm Qorqud qopuzun simlərinə toxununca Koroğlu görünür. Misri qılınc ahənrüba kimi ərənləri arxasınca çəkir. Hər biri Koroğlu sözünün salğarına tapınır, Koroğlunun oxuması ərənlərin təpərini bir boy da dikəldir:

*Görkdü bizə Çanaqqala, Əlincə,*
*Bu işğala dözəmmərəm ölüncə...*
*Dəlilərim, durna teli dalınca*
*Qarabağa səfərimiz var bizim.*

...Koroğlunun çağırışını musiqi sədaları tamamlayır. Xalq artisti Zümrüd Məmmədovanın ifasında “Yaşa mənim xalqım” səslənir. Ritmi milli-xəlqi heysiyyətdən barınmış mahnı ürək-ürək gəzişir, ürək-ürək dikəlir, meydan boyunca silkələnir; güləşdən qabaq gərdiş edən pəhləvanlar sayağı...

Mahnının sonluğu daha böyük coşquya səbəb olur. Marşın sədalarıyla meydana gətirilən bayraq elə zərif dalğalanır ki! Onda əməkdar artist Azərinin ifasında “Çırpınırdı Qara dəniz”i dinləmək keçir hamının ürəyindən. Abdulla Qurbani bu məqamın yaşanılacağını duyurmuş; duyum mahnısıdı bu, bu duyum mahnısı bitincə kiminsə nəfəs dərmədiyinə inanmamaq günahdı...

Bayram bayram ovqatında hamıya könül xoşluğu verməkdədi. Şəmkir rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov, Milli Məclisin deputatı Sahibə Qafarova, Azərbaycanın Milli Qəhrəmanı Rövşən Əkbərov toplaşanları bu möhtəşəm bayram münasibətilə təbrik edir. Çıxışlar bir daha təsdiqləyir ki, xalqla ordu eyni məqsədin daşıyıcısıdı: dövlətçilik qorunmalıdı, işğal altında qalan torpaqlarımız azad edilməlidi...

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun “Ən yaxşı silah yaxşı öyrədilmiş əsgərdir” fikri son ayların hərbi xidmət tezisi olub. Nazir belə dəyər verdiyi əsgərin şöhrət bayramına təbrik göndərib. Təbriki Azərbaycanın Milli Qəhrəmanı Rövşən Əkbərov səsləndirir. Bu, “Əsgər Şöhrəti bayramı”nda əsgərə inamın, əsgərə sevginin təsdiqi kimi dinlənilir. Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun təbrikini isə polkovnik Elşad Əbilov səsləndirir. Hər iki təbrik bayramın ümumi ahəngini gözlədiyimiz (və nail olacağımız!) günə kökləyir...

Göy üzünə baxıram. Göy üzünü payız fəslində bunca duru, bunca sakit görməmişəm. Dədəm Qorqudun gəlişindən, Koroğlunun yerişindən, Xan qızı Natəvanın baxışından, Cavad xanın duruşundan vəcdə gəlib göy üzü. "Bir vaxtlar hökmü Doğudan Batıyacan keçən bu xalqa indən belə sədəmə toxuna bilməz. Toxuna bilməz!" - dinşəyən göy üzünün qayibanə pıçıltısını eşidə bilir...

"Əsgər Şöhrəti bayramı”nda qüdrətə bax ki, yüz illərin o üzündə qalanlara, ölməzlərə yenidən yaşam verir. O ölməzlərin sözü-kəlməsi, öyüdü, xatırlatması bayram ovqatını bir ürək tutumunca coşdurur. Bu coşqunun "Cəngi"yə kökləndiyini güman edirəm. Ürəyi "Cəngi"yə köklənənlərin əhatəsində Cavad xan görünür. Zamanında Gəncə qapılarının yaxınlığında işğala gələnlərin qolunu üzənin, boynunu vuranın gəlişi meydanı bir az da ləngərləndirir. Nələr düşür yada? Rus imperiyasının hədələrinə qılınc sıyıran, ömür payını Vətən adına Gəncəyə girov bilən, Vətən adına ölümünə qənşər gedən, bu uğurda şəhid olan Cavad xan ağır-ağır dillənir:

- Mən Gəncə qalası uğrunda canımdan, oğullarımdan keçdim. Xalq məni unutmadı, Sovet imperiyasının dağıtdığı məzarımın üstündə türbə ucaltdı. Unutmayın: düşməni birliyimizlə məhv edə bilərik. Yumruq kimi birləşin. El bir olsa, dağ oynadar yerindən, balalarım.

Cavad xanın son kəlmələri toplaşanların ürəyində əks-səda verir: El bir olsa, dağ oynadar yerindən!..

Xan qızı Natəvanın baxışlarında bir əlçim giley görünür və bu bir əlçim giley qədərsiz inama sığınıb. Bala anasına sığınan kimi. Qədirin ruhu məni bağışlasın, Xan Qızının baxışlarından oxuduqlarım Qədirin səsindən də yanıqlıdı: “Neyçün gəlməz? Neyçün gəlməz?..”. Şuşalılara ünvanlanan, şuşalıların timsalında işğal olunmuş rayonlarımızın camaatına ünvanlanan sorğudu. Şuşalılarsız Şuşaya şair sorğusudu. Dar macalda o baxışlar toplaşanların tünlüyündən sıyrılıb tədbirin söz sahibinin (ssenari müəllifinin) - Abdulla Qurbaninin üzündə qərarlaşır. “Sağ ol” deyir Xan qızı Natəvanın baxışları. "Xalqının dərdinə yananları bayram ovqatıyla bir yerə topladığına görə sağ ol, oğlum!.."...

“Vidadi xəstədən Bağdad elinə bir nişanə aparası durnalar” görünməsə də, Vidadinin özü görünür. Zamanında sözüylə Vətəni sevdirdiyi əsgərlərin görüşündədi. Əsgərlər də, “Əsgər Şöhrəti bayramı”nın işığına toplaşanlar da Molla Vəlinin kəlamlarından yenə “nur içir”. Şair sözü, şair kəlamı göy üzünün göylüyünə yayılan buludların sırasını dağıtmaqdadı...

“Cahan mülkündə doğru halət görməyən” Molla Pənah Vaqifin baxışları qələbəlikdən üzülmür, dalğındı, düşüncəlidi. Zamanında görmədiyi “doğru halətin” əhatəsindədi axı; “doğru halətin” göy qurşağı olan sevgini görür - Vətən sevgisidi, bu sevgini ömür düsturu bilənləri görür - əsgərlərdi, bu əsgərlərin Ali Baş Komandanının qətiyyətindən də xəbərdardı. İnanır ki, Ali Baş Komandanın bir əmri kifayət edər ki, bu oğullar bir qədər aralıda qürurla dalğalanan bayrağı Qarabağda dalğalandırsınlar. Daha böyük inamla, daha dəruni sevgilərlə...

“Azərbaycan əsgəriyik” mahnısının sədaları yayılınca meydan xüsusi təyinatlılara verilir. Baxanlar qürurlanır. Azərbaycan əsgərinin qüdrətindən qürurlanır. Sırasında belə oğullar olan Silahlı Qüvvələrin döyüş hazırlığından qürurlanır. Belə bir ordunun Ali Baş Komandanının qətiyyətindən qürurlanır!..



...Neçə onillər əvvəl alman-faşist işğalçılarına qarşı döyüşənlər sırasında Şəmkirin Çaparlı kəndindən olan İsrafil Məmmədov da vardı. Tədbir başlayalı gözünü əsgərlərdən çəkmir. Qayğılıdı. Düşüncəlidi. Qayğısı da Vətənə bağlıdı, düşüncələri də. Ağır-ağır meydana tərəf irəliləyir. İlk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanıdı. Hansı səviyyədə şücaət göstərməliydi ki, rus şovinizminin qısqanclıq qadağalarını dağıdıb bu ada layiq görüləydi. İsrafil Məmmədov həmin qadağanı sındırdı. Kişi kimi sındırdı. Azərbaycanlı olaraq sındırdı!

- Zabit idim. Harda, hansı döyüşdə olsam, səni unutmadım, Azərbaycanım. Novqorod uğrunda gedən döyüşlərdə ağır yaralansam da, müalicədən sonra yenidən ön cəbhəyə qayıtdım. Döyüşdüm. Vətən üçün, Azərbaycanımız üçün, Gəncəmiz, Şəmkirimiz, Çaparlımız üçün döyüşdüm. Müharibədən az sonra döyüşlərdə aldığım yaralar yaşamalı olduğum illəri əlimdən aldı. Yaşım 95 olsa da, hələ də 27 yaşındayam...

Sevin Vətəni, oğullarım. Canımız Vətəni sevin! Adımı uca tutduğunuz, “Əsgər Şöhrəti bayramı”na dəvət elədiyiniz üçün sağ olun. Sizinlə birlikdə Qarabağ uğrunda döyüşlərdə olmaq istərdim. Elə istərdim ki!..

...Xüsusi təyinatlıların analara şeiriyyət biçimli müraciəti duyğusallığıyla toplaşanların ürəyini coşdurur. Təmkin var misralarda, təsəlli var və bir də dönməz bir inam var: Qisas qiyamətə qalmır, ana. Şəhidlərimizin qisasını alacağıq. Bu qisas torpaqlarımızın işğaldan azad edilməsidir. Şəhidlərimizin ruhu da bunu arzulayır!..









“Salamat qal, ana” mahnısı səslənir. Hamı bu mahnını təkcə tədbirin deyil, Qarabağa aparacaq yolun başlanğıcında analara müraciət kimi qəbul edir...

Analar oğullara xeyir-dua verir. Vətənin adından...

Bu payız günündə göy üzü üzə gülür...

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. “Azərbaycan Ordusu” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 354
Nüsxə 4570